Səh. 2 Şikayət – Azər Musaoğlu
Səh. 5 Dünyadan bir Tapdıq Yolçu keçdi – Afiq Muxtaroğlu
Səh. 5 Hörmət sözünün lüğətimizdəki mənası – Çiyalə Osmanova
Səh. 6 İbtidai sinif müəllimi: Valideynlərə uşaqlarını 5 yaşında məktəbə göndərməməyi tövsiyə edirəm
Səh. 3 Ramazan ayı oruc, ibadət və səbir ayıdır – Hacı Bəkiroğlu
Səh. 4 UŞAQLARIN BİRİNCİ SİNFƏ QEYDİYYATI BAŞLAYIB
Səh. 7 Gülüşün estetikası – Elizbar Cavelidze

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 MART
2024-CÜ İL
№ 05 (200)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## MİXEİL SARCVELADZE YENİ SƏHİYYƏ NAZİRİ TƏYİN OLUNUB



Gürcüstan hökumətində yeni təyinat olub. Parlamentin deputatı Mixeil Sarcveladze məcburi köçkünlər, əmək, səhiyyə və sosial müdafiə naziri təyin edilib. Bu barədə Gürcüstanın Baş naziri İrakli Kobaxidze martın 11-də keçirdiyi brifinqdə bildirib. Mixeil Sarcveladze səhiyyə naziri vəzifəsində Zurab Azaraşvilini əvəzləyib.

Baş nazir deyib ki, bu qərarın qəbul olunması üçün həm siyasi komandanın üzvləri, həm də tibb ictimaiyyətinin nümayəndələri ilə məsləhətləşmələr aparılıb.

***“Sonda təcrübəyə əsaslanaraq peşəkarlığına və dürüstlüyünə böyük inam bəslədiyim siyasi komandamızın üzvünə üstünlük verdim. Mixeil Sarcveladze səhiyyə naziri təyin edildi”,*** – deyə İrakli Kobaxidze bildirib.

Qeyd edək ki, İ.Kobaxidze ötən ay Baş nazir təyin olunduqdan sonra müdafiə naziri Cuanşer Burçuladze vəzifədən getmişdi. Təxminən bir ay sonra isə səhiyyə naziri Zurab Azaraşvili istefaya göndərilib.

## EKSPERT: GÜRCÜSTANDA ƏHALİNİN SAYI AZALIR



Gürcüstanda son bir neçə il ərzində ölüm sayı doğum sayını üstələyib. Bu barədə jurnalistlərə demoqrafik məsələlər üzrə ekspert Merab Xmaladze bildirib.

Onun sözlərinə görə, 2021-ci, 2022-ci və 2023-cü illərdə Gürcüstanda əhali sayında azalma qeydə alınıb. Buna əhali arasında ölüm nisbətinin artması, doğum səviyyəsinin isə azalması səbəb olub. Qismən artım yalnız Acarıstan, Tbilisi və Kvemo Kartli bölgələrində müşahidə edilib.

***Ekspert deyib ki, son üç ildə ən çox artım Gürcüstanın etnik azərbaycanlı vətəndaşları arasında qeydə alınıb.***

Bununla belə, son illərdə bəzi müsbət tendensiyalar da baş verib. Bu, ilk növbədə, körpələr və bir yaşadək uşaqlar arasında ölüm səviyyəsinin azalması və orta ömür müddətinin artmasıdır.

Ekspertin fikrincə, doğum nisbətinin artması üçün ailələri təşviq etmək və müxtəlif sosial layihələr həyata keçirmək lazımdır, əks halda Gürcüstan əhalisinin sayı azalmaqda davam edəcək.

## SALOME ZURABİŞVİLİ SEÇKİ MƏCƏLLƏSİNƏ EDİLƏN DƏYİŞİKLİKLƏRƏ VETO QOYUB



Gürcüstan Prezidenti Salome Zurabişvili parlamentin “Gürcüstan Seçki Məcəlləsinə əlavələr və dəyişikliklər edilməsi haqqında” üçüncü oxunuşda qəbul etdiyi qanun layihəsinə veto qoyub. Bu barədə Prezident Administrasiyası məlumat yayıb.

Bildirilir ki, yeni qanunda mübahisə yaradan əsas məqam Mərkəzi Seçki Komissiyasının (MSK) təşkili ilə əlaqədardır.

Prezidentin parlamentə təqdim etdiyi məktubda deyilir: ***“MSK sədrinin və üzvlərinin seçilməsi məsələsində parlamentin üçdə ikisi ilə konsensus əldə etmək mümkün olmadıqda təklif edirik ki, MSK sədri və peşəkar üzvləri beşdə üç səs çoxluğu (xalq müdafiəçisinin seçilməsi üçün müəyyən edildiyi kimi) ilə seçilməlidir. Bu da mümkün olmadıqda, namizəd ikidə bir səs çoxluğu ilə 6 ay müddətinə seçilir”.***

Zurabişvili, həmçinin bildirir ki, MSK-ya yüksək etimadın təmin edilməsi üçün Seçki Məcəlləsində nəzərdə tutulduğu kimi müxalifət partiyaları tərəfindən təyin edilmiş MSK üzvləri arasından seçilən sədr müavini vəzifəsinin saxlanılması vacibdir.

Qeyd edək ki, parlament fevralın 20-də dəyişiklikləri üçüncü oxunuşda 81 səs çoxluğu ilə qəbul edib.

Yeni qanuna görə, MSK sədri və Peşəkar üzvlərin seçilməsi proseduru və kvorum yenidən dəyişdirilib. Bundan başqa, müxalifətin kvotasını təmsil edən MSK sədrinin müavini vəzifəsi də ləğv edilib.



# ŞİKAYƏT

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Bizim buralarda çox qəribə adət və inanclar mövcuddur. Düzü, bunlara adət və inanc deməyə adam tərəddüd edir. Buraların bu yazılmamış qayda-qanunu, bəlkə, dünyanın heç bir məmləkətində yoxdur. Bəlkə də var, biz görməmişik və eşitməmişik. Daha, Allaha şükür, bu internet deyilən zadla dünyanın hər nöqtəsindən məlumat əldə etmək, xəbər toplamaq mümkündür. Ona görə də, indi nəyisə görməmək, eşitməmək, bilməmək və bilməyib quqlda axtarış aparmamaq ayıb sayılır.

Bəlkə də bu, heç adətlə, inancla, yazılmamış qayda-qanunla da bağlı deyil. Bəlkə də buraların şəraiti, vəziyyəti – ictimai vəziyyəti, siyasi vəziyyəti, sosial vəziyyəti, iqtisadi və sair vəziyyəti qəribə adət, inanc, yazılmamış qayda-qanun dediyimiz bu "fövqəladə" vəziyyəti yaradır, üzərə çıxarır, yəni böyük Mirzə Cəlilin təbiri ilə desək, bu vəziyyəti təbiət özü yaradır, zənamə özü yaradır...

Məsələn, özünü bu vəziyyətin içərisində görmək istəməyən hər kəs şikayət edir, şikayət edir ki, ey müsəlmanlar, bu gün ol yari-pünhan ayrılır, uçdu ruhim, getdi əqlim, bədəndən can ayrılır, deməzsənmi, uşaqlarımız məktəbə, təhsilə, elmə, alimə deyil, kriminal aləmə maraq göstərir, kriminala təqlid edir, oğru olmaq istəyirlər; səhərdən-axşama çayxanalarda, qumarxanalarda nəşədən çəkib, qumardan oynayıb, təsbeh fırlada-fırlada "zakon talkavat" eliyirlər. Daha müəllim avtoritet sayılmır, avtoritet deyəndə göz önünə tatuajlı, qaşqabaqlı obrazlar gəlir.

Məsələn, bu avam camaat həkimi qoyub, xəstəxananı qoyub falçının, cindarın yanına gedir, dərdlərinə dərmanı həkimlərdən deyil, falçılardan, cindarlardan istəyirlər.

Məsələn, mübahisəli bir məsələləri olduqda nə hüquq-mühafizə orqanlarına müraciət edərlər, nə məhkəməyə, ya özləri öz yumruqlarının gücü ilə öz məsələlərini həll edərlər, ya da "razborşikə" müraciət edərlər ki, onların bu mübahisəli məsələlərini yumruq gücünə həll etsin.

Məsələn, xeyir və şər işlərində ağlı çox olanların əvəzinə pulu çox olanları məclislərinin başında oturdarlar, sözü danışa bilənə yox, susdura bilənə verərlər və sair və ilaxır.

Bu misalları uzatmaq da olar, amma indi uzun yazı oxuyan yoxdur deyə mən də məcbur olub uzun sözün qısasından gedirəm.

Deməli, yuxarıda sadaladıqlarım haqqında artıq illərdir ki, hamımız şikayət edirik. Amma fikirləşmirik ki, təhsil maraqsız olduqda, müəllim savadsız olduqda, seçkilərin saxtalaşdırılmasında canla-başla iştirak etdikdə, imkanlıların balalarına layiq olmadıqları yaxşı qiyməti yazaraq yaxşı oxuyan şagirdlərin haqlarına tüpürdükdə, şagirddən bilik, bacarıq əvəzinə bayramlarda hədiyyələr gözlədikdə, şagirdləri varlı-kasıb təbəqələrinə böldükdə, imkanına, siyasi iqtidarına görə həmişə varlının, iqtidarın tərəfində olub onları dəstəklədikdə uşaqlarda məktəbə, təhsilə, elmə maraq, inam olarmı, belə müəllim şagird üçün avtoritet olarmı?

Və ya səhiyyəsi də elə falçısı, cindarı kimi camaatın cibini soyaraq soxulcan yemək, eşşək südü içmək, üzərlik yandırmaq kimi məsləhəltər verəcəksə, fərq yalnız qiymətdə olacaq ki, camaat da eyni resepti, məsləhəti həkimdən deyil, falçıdan ucuz qiymətə alacaq. Həkimin yazdığı çuval-çuval dərmanların heç bir xeyirinin olmadığını, əksinə, cibinə və mədəsinə ziyanının olduğunu görən xəstə həkimə inanarmı, inanmasa sağalarmı? Elə ona görə də inanmadığı səhiyyəni qoyub şəfanı xurafatın yanında axtaracaq.

Və yaxud da hüquq-mühafizə orqanları sənin mübahisəli məsələni həll etməkdə maraqsız olarsa, şikayətinə baxmazsa, məhkəmə sənin hüquqlarını siyasətə, vəzifəyə, pula satarsa, dəyişərsə sən də məcbur olub "razborşikə" müraciət edəcəksən.

Bax bizim buralarda belə qəribə adət, inanc, yazılmamış qayda-qanunlar var. Nə qədər ki, xeyir və şər məclislərinin başında ağlı çox olanlar yox, pulu çox olanlar əyləşəcək, söz danışa bilənə yox, susdura bilənə veriləcək, müəllimlər şagirdləri kasıb-varlı siniflərinə böləcək, seçkiləri saxtalaşdıracaq, həkimlər Hippokrat andına sadiq qalmayacaq, falçıyla eyni zehində olacaq, məhkəmə ədaləti satacaq, insan hüquqları ali olmayacaq, bu münbit vəziyyətdə bizim buralarda bu qəribə adət və inanclar, yazılmamış cəngəllik qayda-qanunları mövcud olacaq, biz də ağzımızı Allah yoluna qoyaraq elə hey şikayət edə-edə ömrümüzü bada verəcəyik. Gələcəkləri oğurlanmış uşaqlarımız da oğru olmaq istəyəcək – insanların arasından əqidəsiz insanları; vicdanını pula satan nadanları; dövlətlərin arasından sərhədləri; ürəklərdən kini, nifrəti; yalanını bundan ona, ondan buna satanları; iki sevən arasından o üçüncü adamları; məzlumların ah-zarını; Kərbəladan Füzulinin, Hələbdənsə Nəsiminin məzarını *(Nüsrət Kəsəmənli)* oğurlamaq üçün deyil, qanunun müəllimin, həkimin, hakimin, ziyalının simasında (əlləri ilə) alınıb-satıldığı bu cəngəllikdə öz "zakon"unu "talkavat" eləmək üçün...

## İYULUN 1-DƏN İNTERNET KAFELƏR ONLAYN QUMAR OYUNLARININ TƏŞKİLİNƏ GÖRƏ CƏRİMƏLƏNƏCƏKLƏR



Gürcüstanda yeniyetmələrin üçdəbiri qumar oynayır və ölkənin hər üçüncü vətəndaşının oyunlar üçün hesabı var. Bu barədə Gürcüstanda yeniyetmələr və gənclər arasında qumar asılılığı ilə bağlı aparılan araşdırmada deyilir.

Bildirilir ki, ölkədə müxtəlif onlayn qumar platformalarında Gürcüstan vətəndaşlarına məxsus 1 milyondan çox hesab qeydiyyatdan keçib və demək olar, hər üçüncü vətəndaşın hesabı var.

Hesabatın nəticələri yeniyetmələrin qumara çox cəlb olunması problemini ortaya qoyur. Məlumata görə, yeniyetmələrin 31 faizinin oyun təcrübəsi var.

Gürcüstan hökuməti yeniyetmələr arasında qumar oyunlarının artmasının qarşısını almaq məqsədilə yeni məhdudiyyətlər tətbiq etmək niyyətindədir.

Vurğulanır ki, 2024-cü il iyulun 1-dən Gürcüstanda qumar oyunlarına daha sərt məhdudiyyətlər tətbiq olunacaq. İnzibati Xətalar Məcəlləsinə ediləcək dəyişikliyə əsasən, yaşı 25-dən az olan Gürcüstan vətəndaşları və 18 yaşınadək əcnəbi vətəndaşlar, habelə qumar oyunlarında iştirakı qadağan edilən şəxslər onlayn rejimdə oyunlar oynaya bilməyəcəklər.

Bu cür şəxslərin onlayn qumar oynamalarına icazə verənlər 10 min lari məbləğində cərimə olunacaq. Bu hal təkrarlanarsa, cərimənin miqdarı 20 min lari olacaq.

Bundan əlavə, 2024-cü il iyulun 1-dən internet kafelər də onlayn qumar oyunlarının təşkilinə görə cərimələnəcək. Bu cür hərəkətə görə cərimə 15 min lari, təkrar pozuntu isə 30 min lari məbləğində olacaq.

## QEYRİ-GÜRCÜDİLLİ MƏKTƏBLƏRİN MÜƏLLİMLƏRİ İMTAHANLARI ANA DİLLƏRİNDƏ VERƏ BİLƏCƏKLƏR



Müəllimlər üçün fənn və peşə bacarıqları imtahanlarının keçirilmə qaydasında dəyişiklik edilib. Dəyişikliyə əsasən, qeyri-gürcüdilli məktəblərdə və sektorlarda müəllim işləyənlər və müəllim işləmək istəyənlər üçün riyaziyyat, ictimai elmlər, təbiətşünaslıq elmləri, estetik tərbiyə fənləri, idman və texnologiayalar üzrə imtahanlar gürcü, eləcə də Azərbaycan, rus və erməni dillərində olacaq.

Peşə bacarıqları imtahanı ilə bağlı sərəncama əsasən, "fənn və peşə bacarıqları imtahanını uğurla vermək üçün Gürcüstan təhsil, elm və gənclər naziri tərəfindən tətbiq edilmiş miqdarda bal toplamaq lazımdır. Belə ki:

a) Peşə bacarıqları imtahanına qeydiyyatdan keçmiş baş müəllim nazir tərəfindən aparıcı müəllim statusu üçün tətbiq edilmiş keçid balını toplayarsa peşə imtahanını vermiş hesab olunur;

b) Peşə bacarıqları imtahanına qeydiyyatdan keçmiş aparıcı müəllim nazir tərəfindən mentor müəllim statusu üçün tətbiq edilmiş keçid balını toplayarsa peşə bacarıqları imtahanını vermiş hesab olunur".

*Mənbə: etaloni.ge*

## 2011-Cİ İLƏ QƏDƏR VERİLMİŞ ŞƏXSİYYƏT VƏSİQƏLƏRİ LƏĞV EDİLİR



Gürcüstan Ədliyyə Nazirliyinin yaydığı məlumata əsasən, cari ilin iyul ayının 1-dən 2011-ci il iyulun 28-dək verilmiş qeyri-elektron şəxsiyyət vəsiqələri ləğv ediləcək.

Layihəyə əsasən, ləğv olunan şəxsiyyət vəsiqələrinin sahibləri yeni şəxsiyyət vəsiqələrini pulsuz alacaqlar.

Həmçinin şəxsiyyət vəsiqəsində və ya doğum haqqında şəhadətnamədə Ədliyyə evi tərəfindən səhvə yol verilibsə, martın 15-dən etibarən həmin sənədlər ödənişsiz dəyişdiriləcək.

# AŞQARA, YOXSA PÖRTDƏMƏ?



Çox yəqin hamımız aşqaralı Bakı plovunu yemişik. Aşqara olduqca kalorili və bahalıdır. Tərkibi qoyun əti, ərik, kişmiş, şabalıd, gavalı kərə yağında, zəfəranlı, sarıköklü... Bu zəngin plovun şöhrəti toylarda xüsusi rəqslə məclisə daxil olursa, yasların da urvatıdır.

Pörtdəmə isə gürcüstanlıların, borçalıların milli, yerli maş lobyalı plovunun yaraşığıdır. Doğranmış ət az suda qaynadılır, süzülür, yağ soğanla tovlanır. Vəssalam!

İnsafən, Bakı aşqarasıyla Borçalı pörtdəməsi heç müqayisə olunmasa da, di gəl bunu gürcüstanlılardan soruş. Xeyirdə, şərdə pörtdəmənin urvatı urvatdı da!

Mən adamlar tanıyıram ki, hazırda saç-saqqalı ağarıb, uşaqlığı keçib bizim buralarda, amma hələ də pörtdəmənin dadı damağımdadır deyir. Borçalıdakı pörtdəməni heç vaxt heç harda yemədik deyirlər. İnadkarın özü də bilir fərqi, amma doğrudan da onun üçün pörtdəmədən yüksək heç bir dad göstəricisi yoxdur. Səbəb bilirsiniz nədir? – Onun qurmanlıq zövqünün məhz pörtdəməylə başlamasıdır. Ağzının dadı el içində, el təamlarıyla formalaşdı. Odur ki, dünyanın nemətləri uşaqlığın yaratdığı səddən keçə bilməz.

Doğrudan da boşa deməyiblər ki, uşaqlığının keçdiyi yerdir Vətən! Vətən qədərmiş vətənin nemətləri də.

Yaxınlarda Gürcüstan Avropa İttifaqına üzvlüyə namizəd seçildi. Münasibət birmənalı deyildi. Sanki əhali iki təbəqəyə bölünmüşdü: Avropayönümlü Qərb və keçmişdonlu Şimal. Ümümdünya hörümçək torunun Marsdan belə görüntü yaydığı bir zamanda Avropa azadlığını, sosial rahatlığı, firavanlığını izləyərkən gənclik, boyunduruq altını çətin qəbul edər. Sovet dönəminin qaydalarıyla, özünəməxsus intizam çərçivəsində, məcburi gözütoxluqla böyüyən nəsil, təbii ki, Avropanı qəbul etməyəcək. Necə deyərlər, gənclik (-40) aşqaranı, orta nəsil isə (40+) pörtdəməni seçir.

Bilirsinizmi, qurman gürcüstanlılarla bizim bu respodentlərin – siyasi müzakirəçilərin fərqi nədir? Pörtdəməsevərlər özləri də bilirlər aşqarayla pörtdəmənin fərqini. Sadəcə Vətən həsrəti, el sevgisinin qara qazanda odunla bişən pörtdəmə kimi yaddaş kartının lap uzaqlardakı fayllarından ömrünə sancaqlayır, bu xoş xatirələrlə bir ömür yaşayırlar.

Maraqlı orasıdır ki, bu səyyar müzakirə aparan siyasətçilərin, aşqarasevərlərin pörtdəmədən, pörtdəməsevərlərin də aşqaradan heç bir məlumatı yoxdur.

Gənclər dünyaya Avropa pəncərəsindən baxmaq istəsələr də köhnəliklə yeniliyin mübahisəsi "balıq, xərçəngin və ördəyin" ətaləti kimi sükunətdə qalacaq!

Dövlətin siyasi taleyini həqiqi mənada xalqını, dövlətini sevən siyasətçilər həll etsə yaxşıdır. Həkim səhiyyəsi ilə, müəllim təhsili ilə, bostançı dirriyi ilə məşgul olsa Krılovun arabası da çayda batmaz. Necə deyərlər, səhv düşməsin yerimiz.

**Esmira ƏLƏKBƏRLİ**

*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# RAMAZAN AYI ORUC, İBADƏT VƏ SƏBİR AYIDIR



**Hacı Bəkiroğlu**

hacihaciyev@hotmail.com

Artıq bir neçə gündür ki, Ramazan ayını yaşamaqdayıq. O səbəblə də istədim elə bu yazımı məhz Ramazan ayı ilə əlaqəli yazım.

Ramazan Allahın ayıdır. Bu aya on bir ayın sultanı da deyilməkdədir. Çünki bu ayda qəlblər hüzur və rahatlıq tapır. Bu mübarək ayı digər aylardan fərqləndirən gözəl xüsusiyyəti isə orucdur. Ramazanda oruc tutmaq bütün müsəlmanlara fərz qılınmışdır. Bunun dəlili isə Qurani-Kərimdə buyurulan "Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlkilərə fərz buyurulduğu kimi sizə də fərz buyuruldu..." məalındakı (Bəqərə surəsi, 183) ayədir.

Ramazan ayı Allahın ayı olduğu üçün bu ayın əhəmiyyəti böyükdür. Uca Allahın sevgisiylə dolub daşacağımız, oruc, iftar, sahur, təravih, dua, səcdə və qarşılıqlı Quran tilavətləri ilə mənəvi aləmlərə yol aldığımız, daha yaxşı bir qul olma yarışına girdiyimiz, ibadətlərimizi zirvəyə daşımağa çalışdığımız mübarək bir aydır.

Ramazan ilahi əmrlərin işığında özümüzü hesaba çəkdiyimiz, qəlblərimizi və fikirlərimizi pisliklərdən qurtarmağa çalışdığımız mübarək günlərdir.

Ramazan ayı xeyir və bərəkət ayıdır, dua və niyaz ayıdır, şükür ayıdır. Günahlardan təmizlənmə, cəhənnəm atəşindən xilas olma ayıdır. Peyğəmbərimiz (s.ə.s.) bu aydan danışarkən buyurmuşdur: "Əvvəli rəhmət, ortası bağışlama, sonu cəhənnəm əzabından qurtuluşdur" (Ət Tərğib vət Tərhib, c. 2, s. 95).

Ürəklərə nur, könüllərə şəfa, möminlərə rəhmət olan, bütün insanlığı cəhalətdən, qaranlıqdan, vəhşilikdən və dəlalətdən qurtaran, doğru yola və ilahi nura, elmə, mədəniyyətə və səadətə çatdıran Qurani-Kərim bu ayda nazil olmağa başlamışdır. Bu səbəblə bu aya "Quran ayı" da deyilməkdədir. Uca Allah (c.c.) belə buyurmaqdadır: "Ramazan ayı elə bir aydır ki, insanlara doğru yolu göstərən, haqq ilə batili ayıran Qurani-Kərim o ayda endirilmişdir. Sizdən hər kim bu ayı idrak etsə oruc tutsun" (Bəqərə, 185).

Ramazan ayı başdan sona xeyirdir. Xeyirin qarşılığı isə cənnətdir. Bir əkənin min biçəcəyi, mənəvi bir yığım mövsümüdür.

Ramazan insanların özlərini hesaba çəkmələri, səhvlərini düzəltmələri və günahlarından tövbə edib Uca Allaha yönəlmələri üçün bir fürsətdir. Ramazan ayında çoxalan ibadətlər, xüsusilə oruc, zəkat və fitr sədəqəsi müsəlmanları Uca Allaha daha çox yaxınlaşdırmaqda, xoşbəxt və hüzurlu etməkdə, onları nəfs tərbiyəsində, ictimai həmrəylik və köməkləşmədə daha müvəffəqiyyətli etməkdədir.

Ramazan ayını əhəmiyyətli edən əsas faktorlardan biri də dinimizin təməl ibadətlərindən olan orucun bu ay içində tutulmasıdır. Uca Allah Quranda "…kim Ramazan ayına çatsa oruc tutsun" (Bəqərə, 185) buyuraraq, Ramazan ayında oruc tutulmasını əmr etməkdədir. Bu səbəblə müsəlmanlar Ramazan ayı boyunca oruc tuturlar. Ramazan ayı oruc, ibadət və səbir ayıdır. Allahın rəhmət qapılarının açıldığı aydır. Sevimli Peyğəmbərimiz Ramazan ayında səmimiliklə edilən dua, ibadət və yaxşılıqların Allah qatında daha qiymətli olacağını bildirmişdir.

Açıq-aşkar yeyən bu aya hörmətsizlik etmiş olar. Namaz qılmayanın belə oruc tutması və haramlardan qaçması lazımdır. Bunların orucu qəbul olar və imanları olduğu aydın olar.

Ramazani-şərifdə oruc tutmaq çox savabdır. Səbəbsiz olaraq oruc tutmamaq böyük günahdır. Hədisi-şərifdə "Üzrsüz olaraq Ramazanda bir gün oruc tutmayan, bunun yerinə bütün il boyu oruc tutsa, Ramazandakı o bir günkü savaba qovuşa bilməz" buyurulur (Tirmizi).

Ramazan ruhun təmizlənmə ayıdır. Çünki Allah-təala qullarını orucla günahdan qorumaq istəyir.

Rəhmətin bol-bol yağdığı bu ayın mənəvi dəyərini yazmaqla bitməz.

Ramazan ayının bir başqa mənəvi dəyəri də Qurani-Kərimin hər hərfinə verilən savabın yüksək olmasıdır. Ramazani-şərifdə az-çoxa sərmayə-qazanca çevrilər. Çünki bu ay rəhmət və bərəkət ayıdır. Bu səbəblədir ki, mömin bu ayda ibadətə düşkün olar. Xüsusilə Qurani-Kərimə daha çox sarılar.

Ramazan səbir ayıdır, çünki ruh səbir etməklə mənəvi təmizliyə çatar. Bu səbir həm bədəni, həm də ruhidir.

Ramazan acın halından anlamaq, sevgini paylaşmaq, xoşgörüş ayıdır. Bilirik ki, səbirsiz, xoşgörüşsüz oruc ancaq fiziki orucdur. Bunun şüurunda olan mömin orucunu bu mövqeyə endirmək istəmədiyindən səbir göstərməkdədir.

Ramazan kasıbın halını dərk etmək ayıdır. Başqa heç bir zaman dilimində olmayan "fitr" sədəqəsinin olduğu və Ramazanın sonunda kasıblara paylandığı, bir baxıma Ramazanı xeyirlisiylə əda etmənin şükrü olan bu ibadət də bu zaman diliminə aiddir.

# UŞAQLARIN BİRİNCİ SİNFƏ QEYDİYYATI BAŞLAYIB




**Gürcüstan Təhsil, Elm və Gənclər Nazirliyi 2024-2025-ci tədris ili üçün uşaqların birinci sinfə qeydiyyat müddəti və şərtlərini müəyyən edib.**

**Gürcüstan təhsil, elm və gənclər naziri Giorgi Amilaxvarinin qərarına əsasən, məktəbə qəbul yaşı ilə əlaqədar "Ümumi təhsil haqqında" Gürcüstan qanununda dəyişiklik edilib. 2024-2025-ci tədris ilində 1 dekabra qədər 6 yaşı tamam olacaq uşaqlar da birinci sinfə qeydiyyatdan keçə biləcəklər.**

**Dəyişikliyə əsasən, tədris ilinin başlandığı gündən dekabrın 1-dək anadan olmuş uşaqların valideynləri və ya qanuni nümayəndələri uşağın hazırlığı və yüksək maraqlarını nəzərə almaqla uşağı bağçada da saxlaya bilər, birinci sinfə qeydiyyat da edə bilər.**

**Uşaqların birinci sinfə qeydiyyatı dörd mərhələdə həyata keçiriləcək:**

**I mərhələ** – qeydiyyatın birinci mərhələsi 2024-cü il martın 6-dan martın 20-nə qədər həyata keçiriləcək. Bu mərhələdə xüsusi təhsilə ehtiyacı olan uşaqlar qeydiyyatdan keçiriləcəklər.

I mərhələdə qeydiyyatdan keçmiş uşaqların valideynləri istədikləri məktəbə ərizə ilə müraciət edə bilərlər. Məktəb rəhbərliyi uşağı Təhsilin İdarəsi üzrə Məlumat Sistemində (EMIS) qeydiyyatdan keçirəcək. Uşağın xüsusi təhsilə ehtiyacı olduğunu təsdiq etmək məqsədi ilə valideyn məktəbdə müvafiq müraciət forması doldurur və bundan sonra multidisiplin komandası tərəfindən uşaq qiymətləndirilir, onun xüsusi təhsilə ehtiyacı olub-olmaması müəyyən edilir. Xüsusi təhsilə ehtiyacı olduğu təsdiq olunarsa, məktəb müvafiq sənəd əsasında şagirdin qəbul edilməsini təmin edir. Birinci mərhələdə qeydiyyatdan keçmiş uşağın sənədi 2024-cü ilin 21 mart tarixindən 26 aprel tarixinə qədər məktəbə təqdim olunmalıdır.

***Xüsusi təhsilə ehtiyacı olan şagirdlər bunlardır:***

a) Fiziki məhdudiyyəti olan;
b) İntellektual inkişaf pozuntusu olan;
c) Tədris qabiliyyəti pozuntusu olan;
ç) Sensor inkişafı pozuntusu olan (eşitmə və ya görmə);
d) Nitq qabiliyyəti pozuntusu olan;
e) Davranış və emosional pozuntusu olan;
ə) Uzun müddət xəstəxanada qalmaq ehtiyacı olan;
f) Təhsildə sosial faktorlardan yaranmış çətinliklər və buna görə də milli tədris planının tələblərini yerinə yetirə bilməyən;
g) Autizm spektri olan.

Xüsusi təhsilə ehtiyacı təsdiqlənməyən uşaqların növbəti mərhələlərdə qeydiyyatdan keçirilməsi mümkün olacaq.

**II mərhələ** – bu mərhələdə mayın 1-dən mayın 16-na qədər qeydiyyatdan keçmək mümkün olacaq və məktəbdə qeydiyyatdan keçəcək uşaqlar bunlardır:

a) Eyni məktəbdə təhsil alan bacı və qardaş;
b) Valideyni/qəyyumu həmin məktəbin əməkdaşı olanlar;
c) Bir ailədən eyni zamanda birinci sinfə daxil olan iki və daha çox olan uşaqlar.

İkinci mərhələdə valideyn/qanuni nümayəndə tərəfindən uşağın qəbulu üçün vacib sənədlərin təqdim olunması əsasında qeydiyyat ictimai məktəblərdə həyata keçirilir. Qeydiyyatı ictimai məktəb təmin edir.

**III mərhələ** – ümumi qeydiyyat mayın 20-dən başlayacaq və iyunun 13-nə qədər davam edəcək.

Qeydiyyat Təhsilin İdarəsi üzrə Məlumat Sisteminin rəsmi veb-səhifəsində – **"registration.emis.ge"** də həyata keçiriləcək. Qeydiyyatı valideyn/qanuni nümayəndə aparır. Elektron qeydiyyatdan keçmiş şagirdin vacib sənədlərinin təqdim edilməsi 14 iyundan 25 iyuna qədər həyata keçiriləcək. Təyin edilmiş vaxtda sənədlər təqdim olunmazsa qeydiyyat avtomatik ləğv olunacaq.

**IV mərhələ** – bu mərhələdə qeydiyyat 27 iyundan 12 iyula qədər məktəblərdə həyata keçiriləcək. Bu mərhələdə azad olunan, yaxud boş qalmış yerlərə I, II və III mərhələlərdə qeydiyyatdan keçmiş, yaxud qeydiyyatı dəyişmək istəyən şagirdlər qeydiyyat olunacaq.

Məktəb dördüncü mərhələdə valideynin/qanuni nümayəndənin təqdim etdiyi vacib sənəd əsasında şagirdin qeydiyyatını təmin edir.

***Birinci sinfə qəbul olmaq üçün lazım olan sənədlər isə bunlardır:***

• Şagirdin qanuni nümayəndəsinin ərizəsi. Ərizədə qanuni nümayəndənin yaşayış yeri və telefon nömrəsi haqqında məlumat qeyd olunmalıdır. Ərizə Gürcüstan Ümumi İnzibati Məcəlləsinin 78-ci maddəsi ilə müəyyən edilmiş digər tələblərə uyğun olmalıdır. Qanuni nümayəndənin şəxsiyyəti təsdiq edən sənədinin nüsxəsi və Gürcüstanda müvəqqəti yaşayışı təsdiq edən sənədin nüsxəsi (belə hal olarsa). Sənədlər xarici dildə olarsa Gürcüstan qanunvericiliyi ilə müəyyən edilmiş qaydaya uyğun olaraq gürcü dilinə tərcüməsi də təqdim olunmalıdır.

• Şagirdin doğum şəhadətnaməsi, yaxud şəxsiyyəti təsdiq edən sənədin nüsxəsi və Gürcüstanda müvəqqəti yaşayışı təsdiq edən sənədin nüsxəsi (belə hal olarsa). Sənədlər xarici dildə olarsa Gürcüstan qanunvericiliyi ilə müəyyən edilmiş qaydaya uyğun olaraq gürcü dilinə tərcüməsi də təqdim olunmalıdır.

***Nazirlik valideynləri qeydiyyat müddəti və şərtləri ilə diqqətlə tanış olmağa çağırır ki, uşaqları vaxtında və maneəsiz məktəbə qeydiyyat edə bilsinlər.***

# GÜRCÜSTANDA TƏLƏBƏLƏRİN SAYI 10,2 % ARTIB

Milli Statistika Xidmətinin hesabatına əsasən, Gürcüstanda tələbələrin sayı 10,2 % artıb. Hesabatda bildirilir ki, 2023-2024-cü tədris ilinin əvvəlində Gürcüstanda 62 ali təhsil müəssisəsi fəaliyyət göstərib, onlardan 19-u dövlət, 43-ü isə özəldir. Ali təhsil müəssisələrinin təxminən üçdə ikisi paytaxt Tbilisidə yerləşir.

Hesabata görə, 2023-2024-cü tədris ilinin əvvəlində Gürcüstanın ali təhsil müəssisələri 54,3 min tələbə qəbul edib, onlardan 32,4 mini dövlət universitetlərinə, 21,9 mini isə özəl universitetlərə qəbul olunublar. Tələbələrin qəbulu ötən ilin analoji göstəricisi ilə müqayisədə 8,4 faiz artıb.

Gürcüstanın ali təhsil müəssisələrində tələbələrin ümumi sayı 177,8 min nəfər təşkil edib, bu da əvvəlki tədris ili ilə müqayisədə 10,2 faiz çoxdur. Tələbələrin ümumi sayının 59,1 faizi dövlət ali təhsil müəssisələrində, 40,9 faizi isə özəl ali təhsil müəssisələrində təhsil alır. Tələbələrin ümumi sayının 51,2 faizini qadınlar, 48,8 faizini isə kişilər təşkil edir.

Statistika Xidmətinin məlumatına görə, 2023-cü ildə ali təhsil müəssisələrini 26,3 min tələbə bitirib ki, bu da əvvəlki illə müqayisədə 2,1 faiz çoxdur. Məzunların 60,1 faizini qadınlar, 39,9 faizini isə kişilər təşkil edib. Dövlət ali təhsil müəssisələrində məzunların sayı özəl ali təhsil müəssisələrinin məzunlarının sayından 1,7 dəfə çoxdur.

Gürcüstanın ali təhsil müəssisələrində əcnəbi tələbələrin sayı 30,7 min nəfər təşkil edib ki, bu da əvvəlki illə müqayisədə 22,5 faiz çoxdur.

Məlumata görə, ali təhsil müəssisələrində 11,2 min professor-müəllim çalışır ki, bu da əvvəlki ilin analoji göstəriciləri ilə müqayisədə 5,9 faiz çoxdur.

Hesabatda qeyd edilib ki, 2023-cü ildə ali məktəblərə qəbul olan doktorantların sayı əvvəlki illə müqayisədə 6,4 faiz artaraq 930 nəfər təşkil edib. Doktorantların ümumi sayı isə 1,9 faiz azalaraq 3569 nəfər təşkil edib.

Əvvəlki illə müqayisədə doktorantura pilləsini bitirənlərin sayı 3 faiz azalaraq 521 nəfər olmuşdur.

# BƏZİ İXTİSASLAR ÜZLƏ BAKALAVR DƏRƏCƏSİ ÜÇ İL, MAGİSTRATURA DƏRƏCƏSİ BİR İL OLACAQ

Gürcüstan Təhsil, Elm və Gənclər Nazirliyi bakalavr və magistratura təhsili ilə bağlı yeni qərar qəbul edib. Qərara əsasən, Gürcüstan universitetlərində bəzi ixtisaslar üzrə təhsil müddəti bakalavr pilləsində üç il, magistraturada isə bir il olacaq. Bu barədə Gürcüstanın Təhsil, Elm və Gənclər Nazirliyi məlumat yayıb.

Məlumatda bildirilir ki, Gürcüstan təhsil, elm və gənclər naziri Giorgi Amilaxvarinin imzaladığı sərəncama əsasən, dəyişiklik bakalavr dərəcəsi üzrə incəsənət, biznes və idarəetmə sahələrinə, magistr dərəcəsində isə biznesin idarəetmə sahəsinə aid təhsil proqramlarına şamil ediləcək.

*Səhifədəki məlumatlar "etaloni.ge", "bpn.ge" saytlarından götürülüb.*
*Gürcü dilindən tərcümə etdi:*
**Aynurə ƏLİYEVA**

# DÜNYADAN BİR TAPDIQ YOLÇU KEÇDİ



Bizim Tapdıq Yolçu ilə tanışlığımızın tarixi çox qədimlərə – ömrümüzün gənclik illərinə təsadüf edir. İlk tanışlığımızın necə baş verməsini isə, nə gizlədim, xatırlaya bilmirəm. Qonşu kəndlərdə yaşasaq da yolumuzun harada kəsişdiyini burada deyə bilməyəcəm.

Biz indi adını rəhmətlə andığımız Tapdıq Yolçuyla Bakıda da görüşmüşük, Tiflisdə də, hələ Ərzurumda da. Belə görüşlərimizdən birini incəliyinə qədər xatırlayıram. Bakıda baş tutan həmin görüşün iştirakçıları haqqında mən bu gün keçmiş zamanda söhbət açdığım üçün üzülürəm. Bu gün həmin görüşdə iştirak edən nə Eyvaz Əlləzoğlu, nə Akif Səməd, nə də Tapdıq Yolçu sıramızda deyil. Onda bəlkə də heç birimiz ölüm-itimin nə olduğunu bilmirdik. Hələ ömrümüzün bu dünyanın ölümlü olduğunu yaxınımıza buraxmayacaq gəncliyini yaşayırdıq.

Hələ ötən əsrin 90-cı illərində Qardabanda hər gün olmasa da, hər həftə bir neçə dəfə görüşdüyümüz, ədəbi camiyyədə baş verənləri uzun-uzadı çək-çevir elədiyimiz, tez-tez dəyişən siyasi hadisələri təhlil etməyə çalışdığımız da yadımdadır. Siyasi kataklizmlərin bir-birini əvəz etdiyi həmin günlərdə sovet hakimiyyətinin Tiflisdə, Bakıda dinc əhalinin qanını tökməsi bizim görüşlərimizin sayını daha da artırmışdı.

20 Yanvar faciəsi günlərində Qardabanda düzənlənən, minlərlə insanın iştirak etdiyi mitinqdə qəbul edilən bəyanatı rəhmətlik Tapdığın oxumasını çoxları xatırlayır. O günlərin qəhrəmanlarından biri də olub-keçənləri lentə alan, soyadını unutduğum rəhmətlik kameraman Aydın idi.

Həmin günlərdə tarix xalqın ayağa qalxdığına, sovet hakimiyyətinə ölüm hökmü çıxardığına, onun tabutuna son mismarları vurduğuna şahidlik edirdi.

2009-cu ildə biz – Tapdıq Yolçu, Aşıq Ziyəddin Keşəli, İlyas Məmmədli və mən Ərzurum yolçuluğuna çıxdıq. Ərzurum türk xalqlarının beynəlxalq şöləninə ev sahibliyi edirdi. Tapdıq Ərzurumda da eyni həvəs, eyni şövqlə tədbir iştirakçılarıyla fikir mübadiləsi aparır, durub dincəlmədən tədbirdən tədbirə qoşurdu.

Tapdıq Yolçunun bir evdən, bir ocaqdan başlayan yolçuluğu çoxmu çəkdi, azmı? Böyük zamanın içərisində yaşanan insan ömrü dəryada damla misalı deyilmi? Tapdıq bir insan ömrünə nələri sığdırmadı? Hər şeydən qabaq Tapdıq sözümüzün keşiyində durdu. Qələmiylə müsəlləh əsgər misalı sözümüzü qorudu. İstər şeirləriylə, istər publisistik yazılarıyla, istər də şifahi çıxışlarıyla.

Söhbət sözdən, milli kimlikdən düşəndə Tapdıq Yolçunun məsələyə öz baxış bucağından diqqət yetirməsini, heç kimə bənzəməyən, özünəməxsus münasibətinin olmasını heç kim dana bilməz. Onun siyasi publisistikası, siyasi hadisələri süzgəcdən keçirmə bacarığı dediklərimin təsdiqi üçün yetərlidir. Dilimizə xırda bir müdaxiləyə belə kəskin münasibət bildirməsini, gürcü dilindən tərcümə edilmiş dərsliklərdəki qüsurları yana-yana vurğulamasını kim unuda bilər?

Hələ "Samqori" rayon qəzetində işləyərkən, Tapdıq Yolçunun hər sözün üstündə əsdiyini bilirdim. "Varlıq" qəzetində birgə çalışdığımız dövrdə mən bunun bir daha şahidi oldum. "Varlıq"ın hər sayının işıq üzü görməsi onu uşaq kimi sevindirirdi. Fərəhindən yerə-göyə sığmırdı. Onun bir sözün yazılışını dəqiqləşdirmək üçün müxtəlif lüğətlərə baxdığına, həmin qaynaqlardan razı qalmayanda dostlarla məsləhətləşdiyinə, zəng edərək, məsələni kökündən həll etməyə çalışdığına dəfələrlə canlı şahidlik etmişəm.

Tapdıq Yolçu şair kimi də, insan kimi də səmimi idi.

Tapdıq Yolçu yumoru, zarafatı sevən idi. Onun canlı, içdən gələn lətifələr danışmasını indi dostlar, onunla munis olanlar necə xatırlamaya bilər?



Tapdıq Yolçunun rəqs etməsinə əlavə iki göz də gərək idi ki, tamaşa edəydi. O qədər yüngül, o qədər plastik, o qədər baxımlı rəqs edərdi ki, görən bir də görüm deyirdi.

Tapdıq Yolçu mərd idi, dostcanlı idi. Bunu deməsəm olmaz.

Tapdıq Yolçu kitab vurğunu idi. O dərəcədə kitab adamı idi ki, son statuslarının birində məzarı üstünə kitablar qoyulmasını təmənna edirdi. Ölümü bu cür mərdanə qarşılamaq hər adamın işi deyil. Bunu da altını cızaraq deyirəm.

Tapdıq Yolçu təkrarsız adam idi. Hər hərəkəti yalnız özünə xas idi. Tapdıq Yolçu standartlara sığmayan nadir insanlardan idi. Bəzən hərəkətlərinin ölçü-biçi tanımaması, heç bir ölçüyə gəlməməsi də bununla bağlı idi. Həyatını, yaradıcılığını adət-ənənələrin, yazılmamış qanunların çərçivələrini qırıb tökərək sürməsi də bundan irəli gəlirdi. Mühafizəkarlar arasında yeniliklərə qapı açan, zamanla ayaqlaşan biri olmaq heç kimə asan gəlməsin. Kimlərsə vaxtın azlığından, öyrənmək üçün artıq gec olduğunu söyləyib "qırxında öyrənən..." fəlsəfəsindən yapışanda Tapdıq Yolçu gürcü dilini öyrəndi, mühasibat kursunu bitirərək, öz işlərini özü yoluna qoymağı bacardı. Tapdıq Yolçu bütün bu əngəlləri aşa bilən nadir şəxsiyyət idi.

...Dünyanın işığını, nurunu artıraraq, dostların qəlbində özünə taxt quraraq, bu dünyadan bir Tapdıq Yolçu keçdi...

**Afiq MUXTAROĞLU**

# HÖRMƏT SÖZÜNÜN LÜĞƏTİMİZDƏKİ MƏNASI



Etimologiya lüğətində, izahlı lüğətdə və ya internetdə "hörmət" sözünün mənasını axtarsaq belə bir açıqlama ilə qarşılaşarıq: "Böyüklərə, yaşlılara və ya ləyaqətinə, xidmətinə görə birinə göstərilən ehtiram; saygı".

Amma bu məna ilə yanaşı başqa bir mənası da var ki, yuxarıdakı izahla heç bir əlaqəsi yoxdur. Öz arzu, istəyimizlə, əməlimizlə bu sözə yeni bir məna qazandırmışıq, hansı ki, deyilişi və yazılışı eyni, leksik mənası isə tamam fərqlidir. Yəni biz "hörmət edirəm" deyəndə söhbət saygı göstərməkdən, avtobusda qalxıb özümüzdən böyüyə yer verməkdən getmir. Bu dəfə verilənlər üzərində İvane Cavaxişvilinin, Akaki Seretelinin, İlya Cavcavadzenin və başqalarının şəkli olan dəyərli kağız parçaları və ya bu kağızla eyni dəyərdə olan müxtəlif hədiyyələrdir.

Deməli, gəlin biz indi necə hörmət edirik onu açıqlayaq. Tutaq ki, sənəd işi ilə (və ya başqa bir işlə) bağlı hər hansı bir dövlət idarəsinə gedirik və məlum olur ki, bu işin düz-qoş edilməsi bir az uzun çəkəcək və ya heç düzəlməyəcək. Bax bu zaman hörmət edirik və işimiz həll olur. Filan sahə ilə heç bir biliyə, düşüncəyə, bacarığa sahib olmayan qohumumuzu işə düzəltmək istəyirik, amma "yox" cavabı alırıq. Bu zaman da hörmət edirik, həll olur. Məktəbdə hörmət edirlər, bəzi universitetlərdə hörmət edirlər, iş yerlərində, xəstəxanalarda və sairə yerlərdə hörmət edirlər, işləri düzəlir.

Artıq söhbətin hansı "hörmət etməkdən" getdiyi hamıya aydındır. Bəziləri ən çox özündən böyüklərə və yaşlılara hörmət edirsə, bəziləri üçün hörmət edilən şəxsin yaşı deyil, rütbəsi və peşəsi daha önəmlidir. Bəzilərinin nə qədər hörmətimiz olduğu danışığından, davranışından bəlli olsa da, bəziləri üçün bu xüsusiyyətlər pulla, hədiyyə ilə ölçülür. Gəlin biryolluq deyək və rahatlayaq, söhbət rüşvətdən, rüşvətxorluqdan gedir. Sadəcə, bəziləri vicdanlarını rahatlatmaq üçün "rüşvət verdim" əvəzinə bir az "hörmət etdim" deyib ürəyini sərinləşdirir. Bəziləri də "filan şey düzəlmirdi, əlimi cibimə salıb hörmət elədim, o saat iş həll oldu" deyə fəxrlə danışırlar. Kimisi bu "hörməti" özü tələb edir. "Bir az hörmət edərsən düzəldərik" cümləsi yaqin çoxumuza tanışdır.

Söhbət rüşvət alanı və verəni tənqid etməyə gələndə çoxları birinci şəxsi günahlandırar. Bir nəfər deməz ki, rüşvəti təklif edən də, verən də suçludur. Rüşvət alanı bilirik, onlar vəzifələrini, işlərini, insanların haqq və hüquqlarını pula satırlar. Rüşvət verənlər də onlarla eyni tarazlıqda dururlar. Elə adamlar görmüşəm işi həll olsun deyə zorla filankəsin cibinə pul qoyub. Elə insanlar görmüşəm yanına məsləhət almağa gələn şəxsə "ciblərinə beş-on lari pul qoy düzəldəcəklər" deyə tövsiyə verir. Belə-belə rüşvətxorluq da yayılır. Onları elə biz özümüz alışdırırıq. Təməlini qoyan elə bizik. Sən verirsən, o da alır. O istəyir, tələb edir, sən də etiraz etmədən, şikayət etmədən verirsən. Bu son ikisi eyni qüvvəyə malikdir. Hər iki halda həm rüşvət alan, həm də verən var. Sonra da deyirlər ki, son zamanlar rüşvətxorluq artıb, nə bilim, hər sahədə mövcuddur. Sahə demişkən, mən həmişə bunun məktəbdən başladığını düşünürdüm, sən demə, artıq uşaq bağçasında da mövcud bir hal imiş. İndi gəl kimisə qına. Ən aşağı pillədən ən yuxarı pilləyə – hər sahədə qol-budaq açmışıq, hörmətimiz artıb.

Lüğətimizdə bir sözün mənası artıb. Təbii olaraq bu sözün daxil olduğu deyimlər, məsəllərin də mənası bir az dəyişib. Məsələn, "hörmət hörmətə baxar" deyəndə sənin elədiyin hörmətin ədədinin arxasındakı sıfırlar nə qədər çox olarsa, işin o qədər tez həll olar mənasına gəlir. Pulda itirib, zamanda qazanmaq, işdə qazanmaq hörmət etməyin qızıl qaydasıdır.

**Çiyalə OSMANOVA**
*Tbilisi Dövlət Universitetinin hazırlıq kursunun tələbəsi*

# İBTİDAİ SİNİF MÜƏLLİMİ: VALİDEYNLƏRƏ UŞAQLARINI 5 YAŞINDA MƏKTƏBƏ GÖNDƏRMƏMƏYİ TÖVSİYƏ EDİRƏM



*Gürcüstanın Xalq Müdafiəçisinin oktyabrın 20-də parlamentə təqdim etdiyi son hesabatda oxuyuruq: "2022-ci ildə birinci sinfə gedən uşaqların valideynlərinin övladlarının məktəbə hazır olmadıqları üçün şagird statusunun dayandırılması ilə bağlı ərizələr verməsi tendensiyası müəyyən edilib".*

*24 illik müəllimlik təcrübəsi olan ibtidai sinif müəllimi söhbəti zamanı bildirib ki, o, uşağın 5 yaşında məktəbə getməsini dəstəkləyən pedaqoq, ya psixoloqla qarşılaşmayıb. Çünki konkret təhlükələr var və hətta "məktəb üçün hazır olmadıqları, onların oynamaq istədikləri həmin uşaqların alnına yazılıb".*

*Nazirin bəyanatına əsasən, 2024-2025-ci tədris ilində 1 dekabra qədər anadan olmuş uşaqlar da 1-ci sinfə gedə bilərlər.*

*"Valideynə 5 yaşlı uşağın məktəbə getməsi ilə bağlı mövcud təhlükələr haqqında bilmək çox vacibdir" - ibtidai sinif və "Teleməktəb" müəllimi, 2018-ci ilin Milli Müəllim Mükafatının finalçısı Daçi Nanobaşvilinin məktəb yaşının dəyişdirilməsi ilə əlaqədar mövqeyi belədir. Təhsil, Elm və Gənclər Nazirliyi isə məktəb yaşının dəyişdirilməsi ilə bağlı qərarı qəbul etməzdən əvvəl psixoloq və mütəxəssislərlə məsləhətləşdiklərini və 5 yaşlı uşağın məktəbə getməsinin məcburi deyil, valideynlərin istəyi ilə olduğunu bildirir.*

*Daçi Nanobaşvili gözlənilən təhlükələri ətraflı izah edir və problemin həlli üçün öz baxışlarını təklif edir, valideynlərə çətin, amma konkret məsləhətlər verir.*

**– Təhsil və Elm Nazirliyinin təşəbbüsü ilə son illərdə uşağın məktəb yaşı bir neçə dəfə dəyişdirilib və vəd verirlər ki, "sonuncu dayanacaq" 31 dekabra qədər anadan olmuş uşaqların məktəbə getmək hüququnun qanuniləşdirilməsi olacaq. Sizdə hansı məlumat var, yetərli əsaslar varmı, yoxsa bu qərara daha çox "istəkli" valideynlərin tələbləri səbəb olub?**

– Məktəb yaşının dekabrın 31-nə keçirilməsi yeni xəbər deyil və biz artıq bir neçə onilliklər əvvəl bu mərhələni keçmişik. Hələ o zaman övladları sentyabrın 2, 3, 5, 10-da dünyaya gələn çoxlu sayda valideyn övladlarının məktəbə qəbulunu tələb edirdi. Onların arqumenti belə idi ki, "iki-üç gün, bir həftə heç nəyi dəyişmir". Belə uşaqlar məktəbə qəbul olunanda ondan sonra təxmin etmək asandır ki, tələb oktyabr, noyabr aylarında övladları dünyaya gələn valideynlərdən gəlib və onların arqumenti "bir ayın, iki ayın fərqi yoxdur" olub. İndi təxminən eyni mərhələdən keçirik. Valideynlər hələ də övladlarının məktəbə qəbul olunmasını tələb edirlər və mən inanmaq istəmirəm ki, nazirlik sırf buna görə bu qərarı verir. Yəqin ki, güclü arqumentlər var, sadəcə onları hələ eşitməmişəm.

**– Neçə ildir ibtidai sinif müəllimisiniz? Natamam məktəb yaşında 1-ci sinif şagirdlərinin məktəbə hazırlıqla bağlı problemi varmı və bu, nədir, bunu müşahidələrinizlə, misallarınızla bizə izah edərdiniz... Siz təhsil nazirinə də belə sözlər demisiniz ki, "əksər uşaqların alınlarında məktəbə hazır olmadıqları yazılıb"...**

– 24-cü ildir ki, ibtidai siniflərə dərs deyirəm. Mən məktəbdə işə başlayanda dekabrın 31-dən əvvəl doğulmuş uşaqlar məktəbə buraxılırdı. Əvvəlcə 5 yaşlılarla ortaq dil tapmaq mənimçün çətin idi, 6 yaşlılarla isə ünsiyyət qurmaq çox asan idi. Mən bunu öz təcrübəsizliyimlə əlaqələndirdim, amma həmkarlarımla məsləhətləşdikdən, psixoloqlarla söhbət etdikdən və müxtəlif ədəbiyyatları oxuyandan sonra başa düşdüm ki, 5 yaşlı uşaqların müxtəlif tipli problemlərinin olması ehtimalı çox yüksəkdir. Vurğulamaq istəyirəm ki, bu, akademik baxımdan mütləq problemlərin olacağı anlamına gəlmir, xeyr. Burada söhbət fərqli bir hazırlıqdan gedir, hələ balaca olan uşaqlar bir yerdə uzun müddət qalmaqda çətinlik çəkirlər, tez-tez diqqətləri yayınır, emosiyalarını idarə etməkdə çətinlik çəkirlər və s.

Bu problemlər təkcə birinci sinifdə deyil. Dərs ilinin əvvəlində əvvəllər tanımadığım uşaqlarla yeni sinfə, məsələn, dördüncü və ya beşinci sinfə daxil oldum və hətta orada da bir həftədən sonra hansı uşağın 5 yaşında məktəbə getdiyini təxmin edə bildim. Çünki həqiqətən də onların alınlarına balaca olduqları və oynamaq istədikləri yazılıb. Onların davranışları bizə birbaşa bunu deyir. Deməli, bir müəllim kimi belə şagirdlərlə əlaqəm olub və öz adıma deyə bilərəm ki, uşağın müxtəlif tipli problemlərinin olması ehtimalı çox yüksəkdir. Yenə vurğulayıram, ola bilər ki, bu, akademik baxımdan olmaya bilər, amma bir çox başqa problemlər var, ona görə də valideynlərə övladlarını 5 yaşında məktəbə göndərməməyi tövsiyə edirəm.

**– Təhsil və Elm Nazirliyi deyir ki, 6 yaşına çatmamış uşağın məktəbə getməsi məcburi deyil və valideyn və ya qəyyumun seçim hüququ olacaq. Sizcə, valideynlər övladının vaxtından əvvəl birinci sinif şagirdi olması istəyinə qarşı çıxa biləcəklərmi?**

– 5 yaşlı uşaqların məktəbə getməsinin məcburi olmaması çox yaxşı haldır, lakin 5 yaşlı uşaqların məktəbə getməsi ilə bağlı mövcud təhlükələr barədə valideynlərə məlumat verilməlidir. Onların bunu təkcə bizdən, müəllimlərdən, psixoloqlardan deyil, nazirlikdən də öyrənmələri vacibdir ki, onlara bu təhlükələri çatdırsınlar. Bildiyimə görə, nazirlikdə bir qrup psixoloq və metodist toplaşıb və bu məsələni müzakirə edərək qərar qəbul ediblər. Orada 5 yaşlı uşaqların məktəbə göndərilməsinin təhlükələri haqqında danışılmalı idi, lakin görünür buna qarşı çıxmaq üçün sadəcə daha güclü arqumentlər olub. Belə olan halda, hesab edirəm ki, nazirlik konkret olaraq mövcud olan təhlükələrdən danışmalı və valideynlərə deməlidir ki, nazirliyin belə bir qərar qəbul etməsi heç bir təhlükənin olmaması demək deyil. Məncə, valideynlərin həm müəllimlər, mütəxəssislər, psixoloqlar, həm də nazirlik tərəfindən məlumatlandırılması çox vacibdir.

**– Uşağın məktəbə getməsi üçün hazır olub-olmamasını müəyyən etmək üçün valideyn nə etməlidir, hansı addımları atmalıdır və siz özünüz nə məsləhət görərdiniz?**

– Əlbəttə, uşağın hazırlıq testindən keçməsi mümkündür və məktəbdə də buna imkan var. Ancaq düşünürəm ki, belə birdəfəlik natamam şəkil alınacaq və uşağın müəyyən problemlərinin olması təhlükəsi yenə də olacaq. Mənim məsləhətim belədir ki, 5 yaşlı uşağı məktəbə aparmasınlar. Uşağın müxtəlif növ problemlərinin olması ehtimalı yüksəkdir.

**– Bir müəllim kimi məktəb yaşının dəyişdirilməsinin həlli prosesində iştirak etmisinizmi? Yaxud təhsil nazirinin dediyinə görə, aktiv məsləhətləşmələr aparılmış həmin psixoloqlar və qrup üzvləri haqqında məlumatınız varmı, tanıyırsınızmı?**

– Xeyr, mən bu proseslərdə iştirak etməmişəm və iştirak edənləri də tanımıram. Üstəlik, elə ibtidai sinif müəllimi, psixoloq tanımıram ki, 5 yaşlı uşağın məktəbə getməsinin problemli olmadığını desin. Əksinə, mən həmişə eyni şeyi eşidirəm ki, əsas davranış problemləri məhz 5 yaşlı uşaqlardadır və ümumiyyətlə, problemlər məktəbə hazır olmayan uşaqlardan qaynaqlanır.

**– Son olaraq qeyd olunan problemi və ya məsələni necə həll edərdiniz, yanaşmanız necə olardı və ya istifadə edəcəyiniz beynəlxalq təcrübə nümunəniz varmı?**

– Bəli, mən bu problemi həll etmək barədə düşünmüşəm. Fikrimcə, həll yollarından biri də 5 yaşlı uşaqları məktəbə başlayandan sonra müşahidə etməkdir. Tutaq ki, üç həftə və ya bir aylıq müşahidə aparılsın və məktəbə hazır sayılan uşaqlar məktəbdə qalsın. Düşünürəm ki, onlar çox az olacaq. Məktəbə getməsi hələ tez olan həmin uşaqların böyük hissəsi isə bağçaya qaytarılsın. Uşaqları bağçaya qayıtmaq üçün əvvəldən hazırlamaq da çox vacib olacaq. Burada psixoloqun cəlb edilməsi zəruri olacaq, uşaqlara hara getdikləri, nə üçün getdikləri barədə düzgün məlumat vermək lazımdır. Bu, uşaqlar üçün travmalar yaratmayacaq şəkildə edilməlidir, burada da valideynlərə mütləq kömək lazım olacaq.

*Mənbə: edu.aris.ge*
*Gürcü dilindən tərcümə:*
***Aynurə ƏLİYEVA***

# GÜLÜŞÜN ESTETİKASI

Elizbar CAVELİDZE



*(əvvəli ötən sayda)*

Düşünürəm ki, bu böyük istəyə aludə olan tədqiqatçılar Xoca Nəsrəddinin ümumiləşdirilmiş simasını konkret bir şəxsə bağlamağa və onun tərcümeyi-halını o qədər təfərrüatı ilə bizə çatdırmağa çalışırlar ki, sanki, bu hekayətdə şübhəli heç nə yoxdur... Hər halda, Türkiyənin ictimai dairəsində az-çox qəbul edilən tərcümeyi-halı belə görünür: Nəsrəddin 1208-ci ildə anadan olub. Sivrihisarın qəsəbəsinə daxil olan (yerləşən) Hortun kəndində. Atası kəndin imamı idi və adı Abdullah, anası isə Siddika idi. O, Hortun kənd məktəbində oxumağa başlayıb. Qıtlıq vaxtı gələndə ailə Sivrihisarda yaşayan qohumlarının yanına köçür və yeniyetmə bu qəsəbənin mədrəsəsində təhsilini davam etdirir. Daha sonra fiqh öyrənmək üçün Konyaya göndərilir və orada məşhur islam alimi Seyid Mahmud Hayranın şagirdi olur. O, hətta Ramazan ayında, bayram günlərində mədrəsədə tələbələr üçün pul yığır, kənd-kənd gəzib imamət və moizə ilə məşğul olurdu. Bu yolla o, dünyanı tanıdı, müxtəlif insanların təbiətini dərk etdi və anladı. Təhsilini başa vurduqdan sonra Konyada qaziliyə namizəd vəzifəsində işləmişdir. Sonra işini atıb, Akşehirə qayıdıb İmarəti mədrəsəsində dərs deməyə başlayıb, ailə qurub, oğul-uşaq sahibi olub. 1243-cü ildə Kösedaği döyüşündə səlcuqlar monqollara məğlub olanda Anadolu əhalisi düşmən boyunduruğu altına düşdü. Monqol şahzadəsi Keyqatu Akşehirdə çadırını qurdu. Temurləngi təsvir edən lətifələr düşündürücüdür ki, bu şahzadə ilə bağlı ola bilər. Nəsrəddin Xoca 1284-cü ildə 76 yaşında Akşehirdə vəfat etmişdir, türbəsi də ömrünün çox hissəsini keçirdiyi şəhərdədir *(Önder M., 24. 53. Elə orada, səh. 124; 54. Elə orada, səh. Nasreddin Hoca Gerçéği", Nasreddin Hoca'ya Armağan, Yayına Hazırlayan. M.Sabri Koz, Oğlak, İst., 1996, s. 261-269.719).*

Bir sözlə, yuxarıda qeyd olunan tərcümeyi-halı mükəmməl təəssürat yaradır. Üstəlik, bizə maraqlı xırda cizgilər də təqdim edir, amma mən şəxsən bilmirəm ki, bu əsər hansı mənbələrə və sənədlərə əsaslanır və Xoca Nəsrəddinin real həyatını əks etdirən sənəd kimi nə dərəcədə etibarlıdır?! İstisna olunmur ki, o, həqiqətən də o dövrdə yaşamış Məvani Xoca Nəsrəddinin tərcümeyi-halı haqqında məlumat verir, amma bizim maraqlandığımız konkret şəxsə nə dərəcədə uyğun gəlir, ən əsası isə aid edilən lətifələrlə əlaqəsi varmı? Xoca Nəsrəddinin adına ki yazırlar?! Bununla bağlı cavab vermək bir növ çətin olacaq. Üstəlik, o dövrün tarixi reallığı bizi əmin edir ki, belə bir ehtimal əsassızdır. Hətta bu fakt belədir: Yuxarıda qeyd etdiyimiz tərcümeyi-hala görə, Xoca Nəsrəddin məşhur şair Cəlaləddin Ruminin müasiridir. Demək olar ki, eyni yaşdadırlar (Rumi 1207-ci ildə, Nəsrəddin 1208-ci ildə anadan olub). İndi Nəsrəddinin Konyada təhsil aldığını və qazilik funksiyasını yerinə yetirdiyini xatırlasaq, yəqin ki, o dövrdə adı bütün Şərqdə tanınan və Konya əhalisi ilə sıx əlaqədə olan Konya sakini Cəlaləddin Rumi ilə müəyyən qədər əlaqə saxlamışdır. Hər halda yumora meyilli Rumi Xoca Nəsrəddinin lətifələrini bilməlidir. Hər halda Cəlaləddin Rumi incə yumor epizodları ilə bəzədilmiş geniş öz nəhəng "Məsnəviyi-mənəvi"sində heç olmasa bir dəfə onun adını çəkmişdir. Bu geniş əsərdə artıq adı çəkilən Cuhadan əlavə *(Həmçinin bax: VI cild, səh. 4449-4539; 4554-4569)* Delkakın lətifələri *(II cild, səh. 2333- 2337, 3520, VI cild, səh. 2539-2619)*, Behlulun dərrakəliyi *(III cild, səh. 699, 1885-1999)*, Kisəçi Nasuhuinin şeytanlıqları *(cild V, 2231-2325)*, Oxunji dərzi Cigəroğlunun şeytanlıqları *(VI cild, 1670-1720)*. Üstəlik, Mövlanə bizə günün günorta çağları məşəllə bazarda gəzərkən qəzəb və dərk zamanı özünə sahib çıxan o şəxsi axtaran bir keşişin əhvalatını danışır *(V cild, 2888-2895)*. Axı bu, küçə-küçə dolaşan, əlində çıraq saleh adam axtaran Diogendir. İndi xatırlasaq ki, Mövlanə çox vaxt lətifələrə və komik epizodlara müraciət edir ki, bu da şairin yazı tərzini açıq şəkildə göstərir *(Bax: Məsələn, cild V, səh. 473-496; 534-545; 641-670; 908-926; 2497-2502 3410-1420 və onun kimilər... Onların hamısını sadalamaq bizi çox uzağa aparar)*. Bütün yuxarıda deyilənlərdən sonra ehtimal etmək olar ki, Məvani Xoca Nəsrəddin XIII əsrdə yaşamış, lakin onun yumorist və hekayəçi kimi ümumiləşmiş görünüşü son dövrlərdə yaranmışdır. Azərbaycanlı həmkarlarımız Xoca Nəsrəddinin XIII əsrdə yaşamış azərbaycanlı alim Xoca Nəsrəddin Tusi olması fikrini bildiriblər. Bunu sübut etmək üçün aşağıdakı arqumentlər verilir: a) Əlyazmalar fondunun direktoru M.Ə. Sultanovun məlumatına görə, bəzi əlyazma və litoqrafiya nəşrlərində lətifələrin müəllifi sadəcə olaraq Nəsrəddin, "Lətif və Zərif" kitabının on ikinci səhifəsində isə Nəsrəddin Tusi kimi xatırlanır. b) M.A.Sultanovun fikrincə, Xoca Nəsrəddinin Molla Nəsrəddin kimi qeyd edilməsi konkret halda molla sözünün "Tusi"nin təhrif olunmuş forması olması ilə izah olunur. c) Eyni zamanda, Tusinin "Əxlaqi-Nasiri" əsərində bir çox lətifələr var ki, o, müəllif kimi ad çıxarıb. Şərqdə Tusi məşhur alim idi və faktdır ki, V.A.Qordlevski Molla Nəsrəddini 13-cü əsrdə yaşamış hesab edir və bu iki şəxsin eyni olduğunu təsdiqləyir *(Гранин Ю. Анекдоты Моллы Насреддина, Предисловие, Издательство Академии Наук Азербайджанской ССР, Баку, 1964, стр. 15-16)*.

Yuxarıda təqdim olunan arqumentlər süniliyə bənzəyir və məncə, həm məşhur alimi, həm də türkdilli xalqın sevimli qəhrəmanını təhqir edən çətin və ağır bir işdir. Qısaca deyirəm: Əgər yuxarıda qeyd etdiyimiz dəlillərlə (Molla-Mövlanə) gətirilən lətifələrin əksəriyyətini və onların XIII əsrə aid olmasını və s. müzakirə etsək, o zaman Cəlaləddin Rumini – Mövlanəni Xoca Nəsrəddinlikdə də cəsarətlə günahlandıra bilərik. Tədqiqatçıların Xoca Nəsrəddini tarixi şəxsiyyət kimi təqdim etmək cəhdi və meylini böyük günah hesab etmirəm. Amma daha qorxulusu odur ki, Xoca Nəsrəddinin lətifələrini seçərkən, deyərdim ki, qəribə və anlaşılmaz metodologiya özünü göstərir ki, məncə, bu folklor yaradıcısının özləri üçün yaxşı ola bilməz. Məsələn, Samim Kocaköz, Nəsrəddinin lətifələrini nəşr edən Xoca Nəsrəddinin fikirlərinin XIII əsrin tarixi və ictimai həyatı ilə əlaqəli olduğunu hesab edir. O, heç vaxt kinsizliyə zəmin hazırlamağa çalışmaz və ən əsası Xoca Nəsrəddinin fikirləri türk millətinin açıq fikirliliyinin, dünyagörüşünün simvoludur. Buna görə də biz bu misalı sadələşdirib alçaltmamalı və ilk növbədə, Xoca Nəsrəddin dövründə (yəni XIII əsrdə) yaşamış insanların şəxsi ləyaqətini, ümumiyyətlə, xalqın fərdlərindən ayırmalıyıq *(Kocagöz S., Nasreddin Hoca Fikraları, İst., 1972, s. 10-11 Nasreddin Hoca Fikralari'ni titizlikle, derleyen Mehmet Fuat, s. XXXI)*.

*(davamı növbəti sayda)*

Müəllif: **Elizbar CAVELİDZE**
Gürcü dilindən tərcümə etdi:
**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 MART 2024-CÜ İL
№ 05 (200)

Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# AUDİT XİDMƏTİ: QEYRİ-GÜRCÜDİLLİ MƏKTƏB ŞAGİRDLƏRİNİN 78 %-İ YAZI BACARIQLARINDA MİNİMUM KEÇİDİ AŞA BİLMƏYİB



Dövlət Audit Xidmətinin hesabatına görə, vauçer maliyyələşdirmə modelinə əsasən, tədris dili maliyyələşmənin həcminin müəyyən edilməsində komponentlərdən biridir. Buna uyğun olaraq, qeyri-gürcüdilli məktəblər və bölmələr artırılmış vauçerlə maliyyələşdirilirlər. Vauçerlə müəyyən edilmiş əlavə maliyyələşmə qərarla təmin edilir, ona görə əmsallar – 1,68-dən 2,15-ə qədər dəyişir.

Gürcüstanda etnik azlıqları təmsil edən şagirdlər üçün təxminən 300-ə yaxın qeyri-gürcüdilli dövlət məktəbi və sektorları (məktəblərin ümumi sayının 14 %-i) fəaliyyət göstərir ki, bu da şagirdlərin sayına mütənasibdir (52000-ə yaxın şagird, ümumi sayın 10 %-i).

Auditdə qeyd olunur ki, əldə edilmiş nəticələrin qiymətləndirilməsini təmin etmək üçün vauçer maliyyələşdirməsi çərçivəsində həyata keçirilən mexanizmlər tətbiq edilməyib.

2018-ci ildə ilkin kateqoriya üzrə qeyri-gürcüdilli məktəblər üçün vauçer əmsalı 1,65 olub, audit dövründə isə qeyd olunan göstərici 1,68-ə yüksəlib. Müvafiq kateqoriyadakı bütün digər əmsallarda da artım müşahidə olunub. Qeyri-gürcüdilli sektorun ehtiyaclarını müəyyən etmək üçün müvafiq araşdırma və təhlil aparılmamışdır. Nəticədə seçilmiş istiqamətlərin ehtiyaclarının mövcud modellə uyğunluğu araşdırılmamışdır. Bundan əlavə, dəyişikliklərdən sonra əldə edilən nəticələrin qiymətləndirilməsi aparılmayıb.

Auditdə pulun səmərəsiz və hesabsız xərclənməsinə misal kimi 2018-ci ildə keçirilən "Gürcü dili ikinci dil kimi" imtahanı göstərilir.

Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzin apardığı araşdırmalara əsasən, "Gürcü dili ikinci dil kimi" fənnində, qiymətləndirməyə görə, qeyri-gürcüdilli məktəblərdə tədris prosesində daha çox çətinliklər yaranır. Nəticələr göstərir ki, şagirdlər yazı komponentində ən aşağı nəticələrə malikdirlər: 78 % yazı bacarıqları üzrə minimum kompetensiya həddini aşa bilməyib və "Gürcü dili ikinci dil kimi" fənnində şagirdlərin 64 %-i gürcü dilindən milli tədris planı ilə nəzərdə tutulmuş tələblərdən minimum keçidi aşa bilməyib; dinləmədə şagirdlərin 47,9 %-i, oxu üzrə 57 %-i, danışıqda isə 59,6 %-i qeyri-qənaətbəxş nəticələr göstəriblər.

*Mənbə: bm.ge*

# TBİLİSİDƏ "SAZ" FİLMİNİN TƏQDİMATI OLUB




Gürcüstanda aşıq və saz sənətinin, eləcə də bu ölkədə yaşayan azərbaycanlıların mədəniyyətinin, adət-ənənələrinin inkişafı və daha yaxşı təbliği məqsədilə "Saz" sənədli filmi çəkilib.

Martın 11-də təqdimatı keçirilən filmin ərsəyə gəlməsində böyük əməyi olan aşıq Nargilə Mehdiyeva deyib ki, filmin çəkilişlərinə bir il vaxt sərf olunub. Filmin yaradıcı heyəti bu müddət ərzində Gürcüstanın bütün regionlarını qarış-qarış gəzib. Paytaxt Tbilisi ilə yanaşı, regionlarda yaşayan azərbaycanlıların zümzümələri, rəqsləri və mədəniyyətimizə aid bütün detallar filmdə öz əksini tapıb.

Filmə baxanlar Gürcüstanda yazıb-yaratmış ustad aşıqlarımız, hazırda bu sənəti yaşadan aşıqlar, eləcə də yerli azərbaycanlıların həyat tərzi, öz adət-ənənələrini qoruyub saxlamaq üçün gördükləri işlər barədə dolğun məlumat əldə edirlər.

N.Mehdiyeva deyib ki, Gürcüstanda yaşayan azərbaycanlıların tarixi, musiqisi, mədəniyyəti, adət-ənənələrinin tanıdılması üçün ilk dəfədir belə bir layihə həyata keçirilib.

Sənədli filmdə, həmçinin ustad aşıqlar Xan Kamandar, Hüseyn Saraclı və digərlərinin həyat və yaradıcılığından bəhs edilir. Hüseyn Saraclının evinin hazırkı vəziyyəti, baxımsız qaldığı vurğulanır.

Filmin Azərbaycanda və Türkiyədə də təqdimatının keçirilməsi planlaşdırılır.

Qeyd edək ki, layihə Gürcüstan Folklor Mərkəzinin dəstəyi ilə həyata keçirilib. Layihənin rəhbəri Sandro Natadze, filmin rejissoru isə Levan Pataraiadır.

# TANINMIŞ GÜRCÜ ŞAİRİNİN ŞEİRLƏR TOPLUSU AZƏRBAYCAN DİLİNDƏ NƏŞR EDİLİB



Azərbaycan Dövlət Tərcümə Mərkəzi tanınmış gürcü şairi, Gürcüstan Yazıçılar Birliyinin sədri Makvala Qonaşvilinin seçmə poetik nümunələrinin toplandığı "Min ikinci gecə" adlı şeirlər kitabını nəşr edib.

Şairin yaradıcılığı haqqında yazılmış ön sözlə açılan kitaba müəllifin vətən, sevgi, həyat və ölüm mövzularında qələmə aldığı "Yol", "İlahi səs", "Şükranlıq", "Tənhalıq məbədi", "Etiraf", "Görüş", "Həqiqət" və digər bu kimi şeirləri daxil edilib.

Əsərləri dünyanın bir çox dillərinə tərcümə olunan Makvala Qonaşvili beynəlxalq poeziya müstəvisində "Lalələr tonqalı", "Günəşin göz yaşları", "Mən sizi sevirəm", "Adlar və simalar", "Çağırış", "Buradan sizə qədər" kimi şeir kitabları ilə tanınıb.

Kitabın "Ön söz" müəllifi tanınmış yazıçı Etimad Başkeçid, gürcü dilindən tərcümə edən şair İmir Məmmədli, redaktoru şair Mahir N.Qarayev və Şəfiqə Şəfadır.

# ÖTƏN İL GÜRCÜSTAN İQTİSADİYYATINA YÖNƏLDİLMİŞ BİRBAŞA XARİCİ İNVESTİSİYALAR AZALIB

2023-cü ildə Gürcüstan iqtisadiyyatına yönəldilmiş birbaşa xarici investisiyalar 1 milyard 600 milyon dollar təşkil edib ki, bu da 2022-ci illə müqayisədə təxminən 24 faiz azdır.



Birbaşa xarici investisiyaların ən böyük hissəsi maliyyə və sığorta sektoruna yatırılıb – 630,1 milyon dollar. Bu, ümumi investisiya həcminin 39,5 faizini təşkil edir. İkinci yerdə emal sənayesi (291,7 milyon dollar), üçüncü yerdə isə nəqliyyat sektoru (138,2 milyon dollar) qərarlaşıb.

Gürcüstana ötən il ən çox böyük sərmayə qoyan ölkə Böyük Britaniya olub. Hesabat dövründə Böyük Britaniyanın yatırdığı investisiyanın həcmi 10 faiz azalma ilə 392 milyon dollar təşkil edib. İkinci sırada 361 milyon dollarla Niderland (84 faiz artım), üçüncü yerdə isə 169 milyon dollarla Türkiyə (artım 206 faiz) qərarlaşıb. Azərbaycanın yatırdığı sərmayələrin həcmi də artaraq 54 milyon dollara çatıb.

# GÜRCÜSTAN MİLLİ BANKININ VALYUTA EHTİYATLARI AZALIB

Gürcüstan Milli Bankının yaydığı məlumata əsasən, Milli Bankın beynəlxalq valyuta ehtiyatları 2024-cü ilin yanvar-fevral aylarında azalıb.

Məlumatda bildirilir ki, beynəlxalq ehtiyatlar 2024-cü il fevralın 29-da ilkin məlumatlara görə, 4746,3 milyon dollar təşkil edib. Ehtiyatlar fevralda 106,9 milyon dollara qədər azalıb.

Analitiklərin fikrincə, ehtiyatların həcminin dəyişməsi hökumətin və bank sektorunun valyuta əməliyyatları, eləcə də Gürcüstan Milli Bankının valyuta satışı ilə bağlıdır.

Gürcüstan Milli Bankının beynəlxalq ehtiyatları 2023-cü il avqustun 31-də tarixi maksimuma çatıb və 5436,8 milyon dollar təşkil edib.

Qeyd olunub ki, xarici valyutaya çevrilən beynəlxalq ehtiyatlar Milli Bankın ehtiyatlarının əsas hissəsini təşkil edir və 4,3 milyard dollardır. Gürcüstan Milli Bankı qızıl ilə vəsait saxlamır.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.